

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 47 (23.209)

7 mart 2019-cu il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 6-da Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentopun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Prezident İlham Əliyev martın 6-da Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toivo Klaarın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Fevralın 5-də və 6-da baş vermiş zəlzələ Şamaxı, İsmayıllı və Ağsu rayonlarında bir sıra fəsadlar törətmişdi. Dövlətimizin başçısının sərəncam və tapşırıqlarına əsasən təbii fəlakətin törətdiyi fəsadlar aradan qaldırılır. Sərəncamın icrası ilə əlaqədar görülən işlərlə yerində tanış olmaq üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 6-da Ağsu rayonuna səfərə gedib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu il 6 mart tarixli sərəncamları ilə Azərbaycan Respublikasının ictimai həyatında, təhsil və mədəniyyət sahələrində səmərəli fəaliyyətlərinə görə, 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə bir qrup şəxs təltif edilmişdir.

Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikasının ictimai həyatında, təhsil və mədəniyyət sahələrində fərqlənən qadınlar da vardır.

**Əkbərova Mehrəngiz Ağabala qızı**
**Məmmədova Fizzə Sadıx qızı**

“Tərəqqi” medalı ilə,

**Rüstəmova Məlahət Oruc qızı**

“Əməkdar müəllim” fəxri adı ilə təltif edilmişlər.

## Heydər Əliyev siyasi xəttinin uğurla davam etdirilməsi muxtar respublikanı çiçəklənən diyara çevirib, onun davamlı sosial-iqtisadi inkişafını təmin edib

### *Tarixin heç bir dövründə Naxçıvan bugünkü qədər gözəl, abad olmayıb*

*Muxtariyyətinin 95-ci ildönümünü qeyd edən Naxçıvan Muxtar Respublikasında ulu öndərimiz Heydər Əliyevin siyasi xətti vətənpərvərliklə davam etdirilərək doğma Azərbaycanımızın quruculuq salnaməsi layiqli nümunələrlə zənginləşdirilir, qədim diyarın şəhər və qəsəbələri ilə yanaşı, ən ucqar dağ kəndləri də abadlaşdırılır, müasir görkəm alır. Muxtar respublikada bu istiqamətdə həyata keçirilən strateji hədəflərə hesablanmış siyasətin məqsədi sosial-iqtisadi inkişafın müasir mərhələsində kənd yerlərində şəhər rahatlığının yaradılması, gəlirgətirən sektorların təşviqi çərçivəsində ailə təsərrüfatlarının dəstəklənməsi, alternativ fəaliyyət sahələrinin inkişafı, həmin yaşayış məntəqələrinin sosial-ictimai, mədəni həyatının daha da canlandırılmasıdır.*

Quruculuq prosesində kəndlərin abadlaşdırılması, təhsil, səhiyyə və digər sosial təyinatlı obyektlərin istifadəyə verilməsi, kənddaxili yolların yenidən qurulması, qaz, işıq, su, rabitə məsələlərinin öz həllini birdəfəlik tapması, sakinlərin məşğulluğunun təmin olunması insanların yaşayış səviyyəsini yüksəldib, məskunlaşmanı, yurda bağlılığı artırıb. Bu gün hər hansı bir ucqar dağ kəndinin infrastruktur təminatı baxımından paytaxt Naxçıvan şəhərindən heç də geridə qalmaması insan amilinə verilən dəyərin ifadəsidir. Təsadüfi deyil ki, muxtar respublikada daimi yaşamaq üçün kəndlərə üz tutanların sayı hər keçən gün daha da artmaqdadır. Füsunkar təbiəti, təmiz havası, ekoloji təmiz qidaları, hərtərəfli şəraiti olan abadlaşan kəndlər artıq cazibə mərkəzinə çevrilib. 1 yanvar 2019-cu il tarixə olan məlumata görə, muxtar respublikada əhalinin 70,5 faizinin kənd yerlərində yaşaması faktı da bunu təsdiq edir.

Fevralın 7-də – Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyi ərəfəsində Şərur rayonunun Kərimbəyli kəndində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun iştirakı ilə yeni sosial obyektlərin istifadəyə verilməsi doğma diyarımızda kənd yaşayış məntəqələrinin abadlaşdırılması istiqamətində həyata keçirilən tədbirlərin davamlı xarakter aldığını göstərir.

Müasir Azərbaycan kəndləri sırasına qoşulan Kərimbəylidə məktəb binası, kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası tikilib, kənd yolu yenidən qurulub, bir sözlə, bütün sahələr üzrə kompleks quruculuq və abadlıq işləri görülüb.

Ali Məclisin Sədri sakinlərlə görüşündə Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyi münasibətilə onları təbrik edib, kənddə yaradılan şəraiti, tikilənləri, qurulanları muxtariyyət bayramına töhfə kimi dəyərləndirib.

Qeyd etdiyimiz kimi, ötən ay Naxçıvan Muxtar Respublikasının yaradılmasının 95 ili tamam oldu. Nadir beynəlxalq model, hüquqi, siyasi və tarixi baxımdan bir fenomen kimi qiymətləndirilən Naxçıvanın muxtariyyəti daxili qanunvericiliklə yanaşı, həm də beynəlxalq müqavilələrlə müəyyən olunub. Bu amil dünyadakı çox az muxtar qurumların statusunda öz əksini tapıb.

Fevralın 9-da Naxçıvan Muxtar Respublikasının yaranmasının 95-ci ildönümü qeyd olunub. Tədbirdə Ali Məclis Sədrinin vurğuladığı kimi, Naxçıvana muxtariyyət verilməsinin əsas səbəblərindən biri də bu məsələnin böyüyərək regional müstəviyə çıxması və beynəlxalq hüququn subyektinə çevrilməsi idi. Göstərmək kifayətdir ki, Naxçıvan məsələsi 1918-1921-ci illər ərzində altı ölkədə müxtəlif səviyyələrdə iyirmi dəfədən çox müzakirəyə çıxarılıb, sonda isə Naxçıvan əhalisinin və ziyalılarının inadlı mübarizəsi, qardaş Türkiyə hökumətinin tutduğu ədalətli mövqe nəticəsində 1921-ci ildə Naxçıvanın muxtar respublika statusunda Azərbaycanın tərkibində qalmasını şərtləndirən beynəlxalq Moskva və Qars müqavilələri imzalanıb. Bu müqavilələrin davamı və yaranmış real vəziyyətin hüquqi təsdiqi olaraq 1924-cü il fevralın 9-da Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının yaradılması haqqında Dekret verilib. Bu, Azərbaycan xalqının olduqca mürəkkəb və çətin şəraitdə əldə etdiyi ən böyük tarixi nailiyyət idi.

Ali Məclisin Sədri tarixi gündə muxtariyyətin və torpaqlarımızın müdafiəsində şəhid olanları yad edib, sabitliyin və sərhədlərin qorunmasında, inkişafın təmin edilməsində əməyi olanlara təşəkkürünü bildirib, tədbir iştirakçılarını muxtariyyət günü münasibətilə təbrik edib, çıxışını ümummilli lider Heydər Əliyevin fikirləri ilə tamamlayıb: ***“Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir, biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox mühüm amildir. Biz bu amili qoruyub saxlamalıyıq”.***

Ötən dövrlər ərzində hər bir muxtar respublika sakininin çəkdiyi əmək Naxçıvan Muxtar Respublikasının inkişafına, müdafiəsinə və nəticə etibarilə, bugünkü tərəqqisinə xidmət edib. Aparılan quruculuq işlərinə, təhsilin, mədəniyyətin, səhiyyənin inkişafına öz töhfələrini verənlərin əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilib, onlar dövlət mükafatları və fəxri adlarla təltif olunublar.

Həmin tədbirdə Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası təltiflərinin və mükafatının təqdimatı olub.

Ali Məclisin Sədri orden, medal və fəxri adların döş nişanlarını və vəsiqələrini təltif olunanlara, həmçinin “Naxçıvan Azərbaycanın dövlətçilik tarixində” kitabına görə Naxçıvan Muxtar Respublika mükafatını kitabın müəllifi, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevə təqdim edib.



Bu gün Azərbaycanın Naxçıvan Muxtar Respublikasının İran İslam Respublikasının yaxın vilayətləri ilə əlaqələri milli mənafelərimizə uyğun olaraq inkişaf edir. Hazırda enerji, təhsil, turizm, ticarət və nəqliyyat sahələrində səmərəli əməkdaşlıq mövcuddur. Həyata keçirilən qarşılıqlı rəsmi səfərlər, imzalanan sənədlər və əldə olunan razılıqlar əlaqələrimizin inkişafına öz töhfəsini verməkdədir. Münasibətlərin yüksək səviyyədə olmasını göstərən digər məqam isə qonşu dövlətlər üçün əlamətdar günlərin hər iki ölkədə qeyd olunmasıdır.

Fevralın 11-də İran İslam Respublikasının Naxçıvandakı Baş Konsulluğu İran İslam Respublikasının yaranmasının 40-cı ildönümü – İslam İnqilabı Günü münasibətilə rəsmi qəbul təşkil edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov rəsmi qəbulda iştirak edib.

İnkişaf strategiyasının uğurla davam etdirilməsi muxtar respublikada iqtisadi potensialın daha da yüksəlməsinə şərait yaradıb, dayanıqlı və sabit iqtisadi sistem formalaşıb. Naxçıvanda sahibkarlığın inkişafı istiqamətində reallaşdırılan kompleks və sistemli tədbirlər, bu sahəyə dövlət dəstəyinin gücləndirilməsi özəl bölmənin inkişafını sürətləndirib, şəhərlərlə yanaşı, bölgələrdə də sahibkarlığın inkişafına əlverişli şərait yaradıb. Sahibkarlığa göstərilən diqqət və qayğının nəticəsidir ki, ümumi daxili məhsulda özəl bölmənin xüsusi çəkisi artaraq 88 faizi ötüb. Son beş ildə muxtar respublikada, ümumilikdə, 84 sənaye təyinatlı müəssisənin istifadəyə verilməsi, 270 heyvandarlıq, 84 ətlik və yumurtalıq istiqamətində quşçuluq, 111 arıçılıq, 74 bağçılıq və 14 balıqçılıq təsərrüfatının yaradılması nəticəsində məşğulluq səviyyəsi yüksəlib, ixracın həcmi artıb. Hazırda muxtar respublikada 383 növdə məhsul istehsal olunur, 350 növdə məhsula olan tələbat tamamilə yerli imkanlar hesabına ödənilir. Bir faktı qeyd etmək yerinə düşər ki, hazırda muxtar respublikada məşğul əhalinin 83 faizə yaxını özəl sektorda çalışır. Sənaye sahəsində məhsul istehsalının 94 faizi, tikintidə görülən işlərin və nəqliyyat xidmətinin 78 faizi, rabitə xidmətinin 82 faizi, kənd təsərrüfatı, ticarət və ictimai iaşə xidmətlərinin isə 100 faizi özəl bölmənin payına düşür ki, bu da çox yüksək göstəricilərdir.

Sahibkarlığın inkişafının dəstəklənməsinin və yaradılan şəraitin nəticəsidir ki, Azərbaycan Respublikası Prezidentinin ilk sədri olduğu “Caspian European Club”un 2018-ci ildə ölkəmizin 10 iqtisadi regionu üzrə hazırladığı illik investisiya reytinqində Naxçıvan Muxtar Respublikası 18 parametr üzrə ən yüksək bal toplayaraq ikinci dəfə lider olub.

Fevralın 16-da Naxçıvan Biznes Mərkəzində Ali Məclisin Sədri cənab Vasif Talıbovun muxtar respublikada fəaliyyət göstərən sahibkarlarla görüşü olub, muxtar respublikanın investisiya reytinqində qalib olması ilə bağlı təqdimat keçirilib.

Ali Məclisin Sədri sağlam rəqabət mühiti formalaşdırdığına görə “Caspian European Club”un rəhbərliyinə, eləcə də ölkəmizin və muxtar respublikanın sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrasında əməyi olan bütün sahibkarlara təşəkkür edib.

Tədbirdə “Caspian European Club”un sədrinin birinci müavini və baş icraçı direktoru Telman Əliyev Naxçıvan Muxtar Respublikasında investisiya və biznes mühitinin inkişafına verdiyi xüsusi töhfəyə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova “Caspian European Club”un mükafatını təqdim edib.

Sonra Ali Məclisin Sədri yeni istehsal və xidmət sahələrinin yaradılması üçün 14 sahibkara güzəştli kreditlərin çeklərini təqdim edib, Naxçıvan Biznes Mərkəzinin sərgi salonunda muxtar respublikada istehsal olunan məhsullardan ibarət sərgiyə baxıb.

Muxtar respublikamızın bütün sahələr üzrə yüksək nailiyyətlər əldə etməsi, onun dünyanın müxtəlif inkişaf etmiş ölkələri ilə iqtisadi-mədəni əlaqələrinin genişləndirilməsinə şərait yaradır. Xarici ölkələrin diplomatik korpusunun nümayəndələrinin muxtar respublikaya səfərləri zamanı bu məsələlər həmişə diqqət mərkəzində olur.

Fevralın 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Yaponiyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Teruyuki Katori ilə görüşüb. Ali Məclisin Sədri Yaponiya hökumətinin dəstəyi ilə Ordubad rayonundakı Azadkənddə su təchizatı sisteminin inşası layihəsinin həyata keçirilməsini qarşılıqlı əlaqələrin

Ardı 2-ci səhifədə

nəticəsi kimi dəyərləndirib və səfirə təşəkkürünü bildirib. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Yaponiya arasında təhsil və iqtisadi sahədəki əlaqələrə diqqəti çəkən Ali Məclisin Sədri muxtar respublika nümayəndələrinin Yaponiyada keçirilən müxtəlif təlim və seminarlarda iştirakından bəhs edib.

Bu gün Naxçıvan Muxtar Respublikası regionda enerji sahəsində lider mövqedədir. Naxçıvanın iqlim şəraiti alternativ və bərpaolunan enerjidən istifadə üçün geniş imkanlar açır. Müasir energetika infrastrukturunun yaradılması və enerji təhlükəsizliyinin təmin olunmasında bu amil əsas götürülür, Günəş Elektrik stansiyaları tikilərək istifadəyə verilir. Kəngərli rayonu ərazisində 2 meqavat gücündə yeni Günəş Elektrik Stansiyasının qurulması bu sahədə həyata keçirilən tədbirlərin davamıdır. Fevralın 22-də rayonun Qabıllı kəndində yeni stansiya istifadəyə verilib. Ali Məclisin Sədri bu münasibətlə keçirilən tədbirdə iştirak edib.

Muxtar respublikada səmərə verən qabaqcıl təcrübələrin, yeniliklərin tətbiqi daim diqqət mərkəzindədir. Kəngərli rayonunun Qabıllı kəndində günəş panelləri ilə işləyən yeni subartezian quyusunun qazılması da görülən işlərin davamıdır. Həmin gün Ali Məclisin Sədri subartezian quyusuna baxıb, qurulanlardan səmərəli istifadə olunması, yaşıllıqların artırılması, subartezian quyularının elektrik təminatında günəş panellərindən istifadə imkanlarının araşdırılması və tətbiqi barədə tapşırıqlar verib.

2004-cü ildə yaradılan Kəngərli rayonu ötən 15 ildə böyük inkişaf yolu keçib. Qürurla deyə bilərik ki, bu gün rayonun bütün yaşayış məntəqələri ən müasir səviyyədə abadlaşdırılıb, yol infrastrukturu yenidən qurulub, çoxsaylı sosial obyektlər əhalinin istifadəsinə verilib. Tikilən yeni sosial obyektlər, müasir inzibati və yaşayış binaları ilə yanaşı, rayon əhalisinin asudə vaxtının mənalı təşkili də diqqətdə saxlanılır, yeni istirahət parkları salınır.

Fevralın 22-də Ali Məclisin Sədri Qıvraq qəsəbəsində tikilən yeni istirahət parkına baxıb, parkda sakinlərin istirahəti üçün lazımi şəraitin yaradılması barədə müvafiq tapşırıqlar verib.

Son illər qurulan qapalı suvarma şəbəkələri yeni torpaq sahələrini əkin dövriyyəsinə qatıb. Hazırda Kəngərli rayonunun Yurdçu kəndi ərazisində qapalı suvarma şəbəkəsi qurulur. Görülən bu işlər onlarla hektar torpaq sahəsinə həyat bəxş edəcək, quraq ərazilər yaşıllığa qərq olacaqdır.

Fevralın 22-də Ali Məclisin Sədri qapalı suvarma şəbəkəsinin tikintisi ilə maraqlanıb, yaxınlıqdakı 40 hektardan artıq ərazinin də layihələndirilməsi və qapalı suvarma şəbəkəsinin qurulması barədə tapşırıqlar verib.

Fevralın 26-da Naxçıvan şəhərinin Dövlət Bayrağı Meydanındakı Xatirə kompleksində Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar tədbir keçirilib. Ali Məclisin Sədri soyqırımı abidəsinin önünə gül qoyub, Xocalı soyqırımı qurbanlarının xatirəsini ehtiramla yad edib.

Fevralın 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov İran İslam Respublikasının Maku Azad Ticarət və Sənaye Zonasının icraçı direktoru Qulamrza Süleymaninin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Ali Məclisin Sədri ölkə prezidentləri arasındakı xoş münasibətin Azərbaycan-İran əlaqələrinin inkişafında mühüm amil olduğunu bildirib. Naxçıvan Muxtar Respublikası ilə İranın Qərbi və Şərqi Azərbaycan vilayətləri arasındakı iqtisadi və mədəni əlaqələrdən bəhs edən Ali Məclisin Sədri gömrük-keçid məntəqələrinin fəaliyyətini və gediş-gəlişin artmasını əməkdaşlığın nəticəsi kimi dəyərləndirib.

*Bu gün qədim Naxçıvanda uzaqgörənliklə həyata keçirilən abadlıq-quruculuq işləri, möhtəşəm layihələr özünün genişmiqyaslılığı və səmərəliliyi ilə seçilir. İnfrastrukturu yeniləşdirmək, müasir müəssisələr, yeni iş yerləri yaratmaq istiqamətində sistemli tədbirlər uzunmüddətli və hərtərəfli inkişaf konsepsiyasını reallaşdırır. Muxtar respublikanın yüksəlişini özündə təcəssüm etdirən sosial-iqtisadi siyasətin başlıca istiqaməti iqtisadiyyatın dinamik inkişafına və bu əsasda sakinlərin rifahının yüksəldilməsinə, sosial şəraitinin daha da yaxşılaşdırılmasına yönəldilib. Əminliklə deyə bilərik ki, doğma diyarımız nəinki muxtariyyətin 95 ilində, tarixin heç bir dövründə bugünkü qədər abad olmayıb, inkişaf etməyib, tərəqqiyə qovuşmayıb. Naxçıvanda insan amili heç bir zaman bu səviyyədə ön planda olmayıb. Bu, Heydər Əliyev yoludur, muxtariyyətin bəhrələridir. Naxçıvan bu yolla irəliləyir, yüksəlir və Azərbaycanın parlayan ulduzu kimi şəfəq saçır.*

**Rauf KƏNGƏRLİ**

## Növbəti açıq dərs



*Heydər Əliyev Muzeyində növbəti açıq dərs "Ümummilli lider Heydər Əliyev və Naxçıvanın muxtariyyəti" mövzusuna həsr olunub.*

Naxçıvan şəhər 4 nömrəli tam orta məktəbin şagirdlərinin iştirakı ilə keçirilən dərsdə 1924-cü il fevralın 9-da Naxçıvan Muxtar Respublikasının yaradılmasından danışılıb. Qeyd olunub ki, 1993-cü ildə dahi şəxsiyyət Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına diqqət daha da artırılıb.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikasının yaradılması ölkəmizin siyasi tarixində əhəmiyyətli hadisə olub. Müstəqillik dövründə Azərbaycan dövlətçiliyinin qorunması və möhkəmləndirilməsi ilə bağlı kompleks problemləri uğurla həll edən ümummilli lider Heydər Əliyev Naxçıvanın muxtariyyət statusu əleyhinə yönələn cəhdlərin qarşısını böyük qətiyyətlə alıb, onu daha da möhkəmləndirib.

Sonda şagirdlər muzeyin ekspozisiyası ilə tanış olublar.

**Xəbərlər şöbəsi**

## Esse imtahanı mərhələsi keçirilib

Naxçıvan Muxtar Respublikasının dövlət orqanlarında mətbuat xidmətlərinin fəaliyyətlərinin təşkili və qarşıda duran vəzifələrlə bağlı 19 may 2018-ci il tarixdə keçirilən tədbirdə qarşıya qoyulmuş tapşırıqların icrasının təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən dövlət orqanlarında vakant mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçi vəzifələrinin tutulması üçün 5 noyabr 2018-ci il tarixdə elan edilmiş müsabiqənin esse mərhələsi keçirilib.

Müsabiqəyə çıxarılmış 7 vakant vəzifənin tutulması üçün 26 namizəd test imtahanı verib, 7 nəfər uğur qazanıb. Keçid balını toplamış 7 namizəd esse mərhələsində iştirak edib. Əvvəlcə iştirakçılar imtahan qaydaları haqqında məlumatlandırılıb, esse yazmaq üçün onlara 60 dəqiqə vaxt verilib. Obyektivliyin və şəffaflığın təmin edilməsi məqsədilə imtahanın videoçəkilişi aparılıb.

İmtahanda iştirakçılara müstəqil mühakimə yürütmək və əsaslandırmaq bacarığını nümayiş etdirməyə imkan verən "Şərqin qapısı Naxçıvan" mövzusu təqdim edilib.

İmtahanın nəticələri komissiyanın rəsmi internet portalında *(www.dqmk.nmr.az)* yerləşdirilib.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## "Gənclərdə büdcə savadlılığı" adlı layihə davam edir



*Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi tərəfindən icrasına başlanılmış "Gənclərdə büdcə savadlılığı" layihəsi muxtar respublikada mütəxəssis hazırlığı sahəsində aparılan işlərin davamı rolunu oynayır.*

Layihə çərçivəsində növbəti təlim Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzinin təşkilatçılığı ilə "Naxçıvan" Universitetində 120-dən çox tələbənin iştirakı ilə baş tutub.

Universitetin prorektoru, iqtisad üzrə fəlsəfə doktoru Hüseyn Bağırsoylu çıxış edərək birgə təşkil olunan tədbirlərin əhəmiyyətindən danışıb.

Maliyyə Tədris Mərkəzinin direktoru, iqtisad üzrə fəlsəfə doktoru Sevinc Cabbarova layihə barədə ətraflı məlumat verib, əhəmiyyəti və aktuallığından danışıb. Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamı ilə əsası qoyulmuş tədbirlər hər keçən gün öz əhatə dairəsini genişləndirir və bir çox zəruri istiqamətdə layihələrin özülünü təşkil edir. Həyata keçirilən bu layihə də məhz müvafiq sərəncamın icrası ilə bağlıdır. Tələbələrin layihə çərçivəsində keçirilən tədbirlərə cəlb olunması onların təlim məşğələlərində müvafiq bilik və bacarıqlar əldə etmələri ilə yanaşı, ümumi dünyagörüşlərinin genişlənməsi, müasir informasiya cəmiyyətində tələb olunan səviyyədə hərtərəfli məlumata sahib olmaları, həyat təcrübəsinə yiyələnmələri məqsədi daşıyır.

Sonra Maliyyə Nazirliyinin Büdcə şöbəsinin baş məsləhətçisi Ramil Hüseynov tərəfindən "Dövlət büdcəsini anlayaq" mövzusunda hazırlanmış təlim materialı təqdim olunub. Azərbaycan Respublikası dövlət büdcəsinin məqsədi, dövlət büdcəsinin tərtibi, müzakirəsi, təsdiqi, icrası, icrasına nəzarət haqqında slaydlar vasitəsilə ətraflı məlumat verilib.

Maliyyə Nazirliyinin Dövlət aparatının və hüquq-mühafizə orqanlarının maliyyəsi şöbəsinin baş məsləhətçisi Xəlil Vəlizadə "Tələbə büdcəsinin idarə olunması" mövzusunda təlim aparıb. Gənclərdə tələbə büdcəsinin effektiv planlaşdırılmasının məqsəd və əhəmiyyəti, təhlilinin vacibliyi, xərclərin müəyyən edilməsi və təhlili, pulun idarə olunması və xərclərin gəlirlərə uyğun qurulması işlərinin əhəmiyyəti barədə danışılıb.

Təlimin sonuncu mərhələsində tələbələrin bu mövzular ətrafında bilik səviyyələrinin yoxlanılması məqsədilə interaktiv mərhələ keçirilib. Bu mərhələdə 4 komanda iştirak edib və iştirakçılara mərhələnin nəticələrinə müvafiq fərqləndirici sertifikatlar təqdim olunub. Qalib komandanın hər bir üzvünə oxunması zəruri olan kitablar verilib.

***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti***

## Bələdiyyələrin fəaliyyəti müzakirə olunub



Babək Rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov bununla bağlı keçirilən tədbirdə çıxış edərək bildirib ki, bələdiyyələr əhali ilə daim sıx əlaqədə fəaliyyət göstərən seçkili, demokratik təsisatlardır. Babək rayonundakı yerli özünüidarəetmə orqanı olan bələdiyyələr də yarandığı gündən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə əhatə olunub.

Qeyd edilib ki, 2018-ci ildən rayonun yaşayış məntəqələrindəki yerli bələdiyyələr tərəfindən ərazilərin təmiz saxlanılması üçün kəndlərdə müqavilə əsasında işçilər cəlb edilib, texnikalar icarəyə götürülüb. Bu da yeni iş yerlərinin açılmasına zəmin yaradıb. Bələdiyyələr həmin yaşayış məntəqələrimizin abadlığını diqqətdə saxlamalı, yol verilən nöqsanları aradan qaldırmalı, seçicilərin göstərdiyi etimadı doğrultmalıdırlar.

Rasim Hüseynov bildirib ki, rayonun 82 min 842 hektar torpaq sahəsinin 43 min 235 hektarı bələdiyyə mülkiyyətindədir. Bələdiyyə torpaqlarının özbaşına tutulması, torpaq sahələrində qanunsuz tikinti aparılması, torpaqların kateqoriyalarının qanunvericiliyə riayət edilmədən dəyişdirilməsi, torpağın vəziyyətinə zərərli təsir göstərən obyektlərin layihələşdirilməsi, tikilməsi və istismara verilməsi, torpaqların dövlət uçotundan və qeydiyyatından gizlədilməsi qanunvericiliklə müəyyən edilmiş qaydada cinayət və inzibati məsuliyyətə səbəb olur. Bununla bağlı rayonun qəsəbə və kəndlərində aid qurumlar tərəfindən bir neçə dəfə maarifləndirici tədbir, həmçinin Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi tərəfindən seminar-müşavirələr keçirilib.

Diqqətə çatdırılıb ki, bələdiyyə torpaqlarının icarəyə verilməsi, icarə haqqının yığılması, bu zaman ədalət prinsipinin gözlənilməsi və digər məsələlər bələdiyyələrin qarşısında duran əsas vəzifələrdəndir. Bundan başqa, "Ailə təsərrüfatları ili"ndə bələdiyyələr rayonun qəsəbə və kəndlərində ailə əməyinə əsaslanan mütərəqqi təsərrüfat formalarının yaranması və inkişafı işində yaxından iştirak etməli, torpaqların əkin dövriyyəsinə qatılmaqla ərzaq təhlükəsizliyinin yaranması işinə töhfə verməlidirlər.

Yığıncaqda Babək qəsəbə bələdiyyəsinin sədri Cabbar Cəlilovun və Cəhri bələdiyyəsinin sədri Nüsrət Qurbanovun çıxışları olub.

**Muxtar RZAZADƏ**

## Bol məhsulun əsası qoyulur

*Kənd təsərrüfatının əsas sahələrindən biri olan əkinçiliyin strukturuna nəzər saldıqda strateji əhəmiyyətinə görə dənli taxıl bitkilərindən sonra ikinci yeri kartof tutur. Kartof ən qiymətli kənd təsərrüfatı bitkilərindən biridir. Təsadüfi deyil ki, onu el arasında "ikinci çörək" də adlandırırlar. Bu məhsuldan ilboyu istifadə olunduğu üçün ona ərzaq kimi həmişə tələbat vardır. Muxtar respublikanın torpaq-iqlim şəraiti kartofçuluğu inkişaf etdirməklə əhalinin ilboyu yerli kartof məhsulu ilə təmin olunmasına imkan verir. Bu həm də daha çox istifadə olunan ərzaq məhsullarının muxtar respublikaya idxalının qarşısının alınmasına imkan yaradıb.*



Muxtar respublikamızın ən böyük aqrar rayonu hesab edilən Şərurda bu sahədə hər il uğurlu göstəricilərə nail olunur. Kənd əməkçiləri göstərilən dövlət qayğısı, həmçinin ilbəil qazandıqları təcrübələr nəticəsində əldə olunan məhsulun intensiv artımına nail olurlar. Təkcə ötən il 1076 hektar əkin sahəsindən 16 min 357 ton kartof istehsal edilib. Qazanılan uğurlardan ruhlanan rayonun torpaq mülkiyyətçiləri artıq növbəti ilin məhsulu üçün kartof əkininə başlayıblar. Bu mövsümdə də kartof əkinini aqrotexniki tələblərə uyğun və optimal müddətdə başa çatdırmağa çalışırlar.

Onu da qeyd edək ki, kartof əkiləcək sahələrdə hələ ötən ilin payızında lazımi dərinlikdə şum qaldırılıb, şumdan əvvəl sahələr üzvi gübrələrlə zənginləşdirilib. Bu günədək artıq 85 hektardan çox sahədə kartof əkini aparılıb.

Torpaq mülkiyyətçiləri digər əkin sahələrində də işə başlayıblar. 11,6 hektardan çox sahədə soğan, 20 hektara yaxın sahədə sarımsaq, 0,2 hektardan çox sahədə noxud əkən şərurlular heyvandarlığın yem bazasını zənginləşdirmək üçün 257 hektardan çox sahədə yonca əkiblər.

Əkin kampaniyasını optimal müddətdə başa çatdırmaq üçün əvvəlcədən həyata keçirilən tədbirlər belə deməyə əsas verir ki, bu il də şərurlu zəhmət adamlarının əməyi sayəsində bol və keyfiyyətli məhsul yetişdiriləcəkdir. Əkində yüksək məhsuldar toxum sortlarından istifadə olunur, əkinçilərə hərtərəfli köməklik göstərilir.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

*Ölkəmizdə dövlət qadın siyasətinin təməl prinsiplərinin müəyyən edilməsi ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Öz əxlaqı, bacarığı, dəyanəti, mətanəti ilə örnək olan, vətənpərvərliyi, nəcibliyi və müdrikliyi ilə seçilən Azərbaycan qadını qəhrəman övladlar böyütməklə yanaşı, həyatımızın bütün sahələrində uğurlu fəaliyyət göstərir, cəmiyyət quruculuğuna öz dəyərli töhfələrini verir. Zəngin mədəni irsin daşıyıcısı olan xalqımız qadının ailədə və cəmiyyətdəki mövqeyinə daim böyük ehtiramla yanaşıb. Azərbaycanda, o cümlədən muxtar respublikamızda qadın əməyinə yüksək qiymət verilir, onların müxtəlif sahələrdə uğurlu fəaliyyətinə hərtərəfli şərait yaradılır.*

## Çətin və şərəfli peşə sahibləri

Bu gün həmin qadınların yüzlərlə davamçısı olan zərif cinsin möhkəm iradəli nümayəndələri ictimai-siyasi həyatda öz bilik və bacarıqlarını əsirgəmir, ölkəmizin, eləcə də muxtar respublikamızın sosial-iqtisadi, elmi-intellektual potensialının artırılmasına, mədəniyyətimizin inkişafına layiqli töhfələr verirlər. Eyni zamanda çətin və məsuliyyətli peşələrdə öz işinin öhdəsindən layiqincə gələn, hüquq-mühafizə orqanlarında çalışan qadınlarımız da az deyil.

Fəaliyyəti dövründə polis kapitanı rütbəsinə qədər yüksələn ***Səadət İskəndərli*** 1991-ci ildə Culfa rayonunun Camaldın kəndində anadan olub. Onu bu peşəyə uşaqlıqdan bəri polis olmaq arzusu gətirib. Səadət İskəndərli hazırda Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Kadrlar şöbəsinin rəis əvəzi vəzifəsində çalışır. Olduqca çətin və məsuliyyətli işinin öhdəsindən layiqincə gələn Səadət xanım deyir ki, bu gün görkəmli dövlət xadimi Heydər Əliyev siyasi xəttinin uğurla davam etdirilməsi nəticəsində ölkəmizdə, eləcə də muxtar respublikamızda ictimai asayiş təmin olunub, polisin fəaliyyəti üçün lazımi iş şəraiti yaradılıb. Bu sahədə həyata keçirilən tədbirlərin nəticəsidir ki, ölkəmizdə polis akademiyası fəaliyyət göstərir və burada ixtisaslı kadrlar yetişdirilir. Həmçinin polis orqanlarının maddi-texniki bazası ən müasir səviyyəyə çatdırılıb. Bununla yanaşı, qadın polislərin fəaliyyəti üçün geniş imkanlar açılıb. Əvvəllər qadınların polis işçisi kimi fəaliyyət göstərməsi elə də asan məsələ deyildi. Bu gün nəinki polis orqanlarında, eləcə də digər sahələrdə qadınların ən böyük dəstəkçisi dövlətdir. Qadınlarımız hər cür diqqət və qayğı ilə əhatə olunublar. Bütün sahələrdə çalışan qadınların əməyi dövlətimiz tərəfindən qiymətləndirilir, onlar müxtəlif mükafatlara layiq görülürlər. Bu isə bizi daha əzmlə çalışmağa ruhlandırır. Buna görə də dövlətimizə minnətdarıq və çalışacağıq ki, bundan sonra da ölkəmizin, muxtar respublikamızın inkişafı üçün əlimizdən gələni əsirgəməyək.



Polis kapitanı ***Fatma Rzayeva*** isə 2012-ci ildən Daxili İşlər Nazirliyinin Maliyyə-plan şöbəsinin baş inspektoru vəzifəsində çalışır. Onun dediklərindən: “Ölkəmizdə dövlət qadın siyasətinin uğurla həyata keçirilməsinin nəticəsidir ki, bu gün qadınlarımız ən müxtəlif sahələrdə uğurla fəaliyyət göstərirlər. Polis orqanlarında çalışmaq isə hər bir Azərbaycan qadını üçün şərəf və qürurvericidir. Azərbaycan polisi ölkəmizin müstəqilliyinin, ərazi bütövlüyünün qorunmasında, sabitliyin təmin olunmasında hər zaman ön sırada olub. Doğrusunu desəm, mənim də uşaq yaşlarından polis olmaq arzusu ürəyimdən keçib və artıq buna nail olmuşam. Bu arzumun təməlində isə insanların hüquqlarını qorumaq, onlara çətin vəziyyətlərdə kömək etmək istəyi dayanıb. Bu sahədə çalışdıqdan sonra gördüm ki, həqiqətən, polisin işi çətin, məsuliyyətli, eyni zamanda şərəflidir. Bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsidir ki, muxtar respublikamız neçə illərdir, cinayətsiz region kimi tanınır. Təbii ki, bu tədbirlərin həyata keçirilməsində polisin rolu danılmazdır. Buna görə də fəxr edirik ki, muxtar respublikamızda sabitliyin qorunmasında biz polis orqanlarında çalışan qadınların da əməyi vardır. Qürur hissi keçiririk ki, Azərbaycan qadını digər sahələrdə olduğu kimi, polis orqanlarının işinə də öz töhfələrini verir.



Gömrük xidməti polkovnik-leytenantı ***Minayə Nəsirova*** 15 ildir ki, bu orqanda çalışır. İki övlad anasıdır. Hələ orta məktəb illərindən gömrük orqanlarında işləmək arzusunda olduğundan ali məktəbə qəbul imtahanlarında bu ixtisası seçdiyini bildirir. Naxçıvan Dövlət Universitetinin Gömrük işinin təşkili ixtisasını bitirib. Gömrük orqanlarında müxtəlif vəzifələrdə çalışan, biliyi, bacarığı, işgüzarlığı ilə seçilən gömrükçü xanım komitənin İnzibati idarəetmənin təşkili bölməsinin rəisi vəzifəsini icra edir.



O bildirir ki, muxtar respublikamızın hərtərəfli inkişaf tempinə uyğun olaraq gömrük orqanları da yeniləşir, müasirləşir. Gömrük nəzarəti və rəsmiləşdirilməsi tamamilə avtomatlaşdırılıb. İndi gömrük əməliyyatları kağızsız texnologiya əsasında həyata keçirilir. Gömrük işinin təşkili üçün yaradılan nümunəvi şərait işimizi daha yaxşı qurmağa ruhlandırır. Naxçıvan gömrük sisteminin başdan-başa yenilənməsi, müasir infrastruktura və möhkəm maddi-texniki bazaya qovuşdurulması dövlətimizin bu sahəyə qayğısının nəticəsidir. Gömrük əməkdaşları da, öz növbəsində, çalışırlar ki, göstərilən qayğıya, etimada əməli işləri ilə cavab versinlər.

Sevindirici haldır ki, gömrük sahəsində çalışanların da əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. Minayə xanım da belə gömrük əməkdaşlarındandır. O, bu il ölkə başçısı cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə “Dövlət qulluğunda fərqlənməyə görə” medalı ilə təltif edilib. Minayə xanım göstərilən qayğıya, əməyinin qiymətləndirilməsinə görə dövlətimizə minnətdarlıq edərək deyir: “Bu gün Azərbaycanın və onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasının tərəqqisi üçün biz gömrükçülər üzərimizə düşən vəzifələrin öhdəsindən layiqincə gələcək və ölkəmizin milli rifahı üçün bundan sonra da əlimizdən gələni əsirgəməyəcəyik”.

Culfa gömrük postunun inspektoru, gömrük xidməti kapitanı ***Səidə Əsgərova*** hazırda bu gömrük sərhəd-buraxılış məntəqəsindən keçən vətəndaşların yoxlanılması, gömrük qanunvericiliyinə zidd halların aşkarlanıb aradan qaldırılması istiqamətində çalışır. Ötən il gömrük sahəsində hüquqpozmalara qarşı mübarizədə əldə etdiyi nailiyyətlərə görə “Gömrük xidməti əlaçısı” döş nişanı ilə təltif olunub.

Söhbət zamanı vurğulayır ki, bu il 190 yaşı tamam olan Culfa gömrük sərhəd-buraxılış məntəqəsi Azərbaycanın üç ən qədim gömrük məntəqəsindən biridir. Muxtar respublikamızın xarici ticarət dövriyyəsində, tranzitin artmasında mühüm rol oynayır. Bundan başqa, Azərbaycanın digər bölgələrinə və əks-istiqamətdə yüklərin daşınması, minik maşınlarının və avtobus reyslərinin hərəkəti bu gömrük orqanı vasitəsilə həyata keçirilir. Çalışırıq ki, gömrük sərhəd-buraxılış məntəqəsindən istifadə edən vətəndaşlarımıza, turistlərə, biznes subyektlərinə nümunəvi xidmət göstərək.



“Culfa gömrük sərhəd-buraxılış məntəqəsi 24 saat fəaliyyət göstərir, gecə növbəsi sizi yormur ki?” sualımıza Səidə xanım belə cavab verir: – Mən öz peşəmi sevib, seçib bu sahəyə gəlmişəm. İstəyirəm, gələcəkdə övladım da bu ixtisasa yiyələnsin. İşimizin məsuliyyətini dərk edirik, ölkəmizin, muxtar respublikamızın iqtisadi təhlükəsizliyinin təmin olunması, daxili bazarın qorunması, qaçaqmalçılığa qarşı mübarizə sahəsində üzərimizə düşən vəzifələri səylə yerinə yetirməyə çalışırıq. Bu mənada, biz də bu xalqın əsgərləriyik. Vətənə, dövlətə, millətə xidmətin gecəsi, gündüzü olmaz.

*Vətəninə, el-obasına, torpağına sıx tellərlə bağlı igid qızlarımız hər zaman olub, bu gün də var və daim olacaq. Seçdikləri peşəni özünə şərəf yolu bilən, xalqına və dövlətinə sədaqətlə xidmət edən qadınlarımız da bundan sonrakı fəaliyyətlərində qarşıya qoyulan tapşırıqları layiqincə yerinə yetirəcək, onlara göstərilən etimadı doğruldacaq, ictimai asayişin təmin olunmasına öz töhfələrini verəcək, bu məsuliyyətli peşənin öhdəsindən layiqincə gələcəklər. İnanırıq ki, üzərlərindəki sosial yükün ağırlığına baxmayaraq, dövlət işlərində, xüsusilə də hüquq-mühafizə orqanlarımızın sıralarında uğurla fəaliyyət göstərən xanımlarımız bundan sonra da ölkəmizin, o cümlədən doğma Naxçıvanımızın inkişafına, qüdrətlənməsinə, həmçinin ailə dəyərlərimizin, mədəniyyətimizin qorunub saxlanılmasına öz töhfələrini verəcəklər.*

**Gülcamal TAHİROVA**
**Ramiyyə ƏKBƏROVA**

## Naxçıvanlı qadınlar elmin inkişafında müstəsna rol oynayır

*Ölkəmizdə, o cümlədən muxtar respublikamızda elmin inkişafında qadınlarımızın tarixən misilsiz xidmətləri olub. Müstəqilliyimizin bərpasından sonra isə Azərbaycan qadınının intellektual potensialından yetərincə istifadə sahəsindəki boşluğun aradan qaldırılmasına başlanılıb. Bundan sonra qadınlar digər sahələrdə olduğu kimi, elmdə də təmsil olunmağa başlayıb.*

***“Qadınlar dövlətimizin, müstəqilliyimizin, bu günümüzün dayağıdır”***, – deyən ümummilli lider Heydər Əliyevin bu sahəyə diqqəti doğma diyarımızda da intellektual qadınların inkişafına rəvac verib. Ailə dəyərlərini qorumaqla yanaşı, Azərbaycan elminə də mühüm töhfələr verən bu qadınlar içərisindən XX əsrin sonunda artıq 2 akademik yetişib. Onlardan biri qədim yaşayış yerlərindən olan Şahtaxtı kəndində anadan olmuş, ümummilli lider Heydər Əliyevin ömür-gün yoldaşı, sirdaşı, Azərbaycana İlham Əliyev kimi tərəqqipərvər dövlət xadimi bəxş etmiş görkəmli oftalmoloq Zərifə xanım Əliyeva, digəri isə Şərur rayonunun Şəhriyar kəndində dünyaya göz açmış, tanınmış bioloq Siddiqə Məmmədova idi. Onlarla yanaşı, biologiya sahəsində Zəhra Şahtaxtinskaya, Sevda Məmmədəliyeva, botanika üzrə Roza Əsgərova, filologiya sahəsində Ninel Hacıyeva, fizika-riyaziyyat elmləri üzrə Zərifə Əliyarova, Sevda Abdullayeva, kimya sahəsində Rəfiqə Əliyeva, Svetlana Məmmədova Azərbaycan elminə dəyərli töhfələr verməklə elmlər doktoru alimlik dərəcəsini qazanıblar. Svetlana Məmmədova həm də şəhid alim qadınlarımızdandır. O, 1990-cı ilin Qanlı Yanvar günlərində faciəli surətdə həlak olub və Şəhidlər xiyabanında dəfn edilib.



Fəlsəfə doktorlarından isə Sevil Əliyeva, Gülarə Əliyeva, Cəmilə Təhmasib, Əqidə Ələkbərova və digərlərinin adlarını çəkmək olar. 2005-ci ilədək Azərbaycan elmi elitasının tərkibindəki elmlər doktorlarından 14-ü, fəlsəfə doktorlarından isə 6-sı məhz naxçıvanlı alim qadınlar olub.

XXI əsr Azərbaycanın digər bölgələri kimi, Naxçıvanın da alim qadınlarının inkişafında yeni mərhələ təşkil edir. Qeyd etmək lazımdır ki, naxçıvanlı alim qadınlardan bir qismi fəaliyyətlərini muxtar respublikadan kənarda da uğurla davam etdiriblər. Rəfiqə xanım Əliyevanın akademik seçilməsi, İradə Hüseynovanın AMEA-nın Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun direktoru kimi fəaliyyət göstərməsi bu fikrin bariz nümunələrindəndir.

Ümummilli liderimiz Heydər Əliyevin 2002-ci il 7 avqust tarixli Sərəncamı ilə AMEA Naxçıvan Bölməsinin yaradılması isə qadınlarımızın elm sahəsində fəaliyyətlərinin canlandırılmasında mühüm rol oynayıb. Bu sahəyə göstərilən diqqətin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən davam etdirilməsi elm sahəsinə maraq göstərən qadınların sayının artmasına şərait yaradıb.

Əvvəllər blokadada olan Naxçıvan üçün müdafiə işləri ilə bağlı tez-tez paytaxta getmək çətinlik törədirdisə, belə müdafiə şuralarının Naxçıvanda yaradılması bu problemi də aradan qaldırıb. Belə ki, Azərbaycan Respublikasının Nazirlər Kabineti AMEA Naxçıvan Bölməsinə və Naxçıvan Dövlət Universitetinə müxtəlif ixtisaslar üzrə fəlsəfə doktoru və fəlsəfə doktoru hazırlamaq səlahiyyəti verməklə bu sahənin sürətli inkişafına geniş imkanlar açıb. 2006-cı ildən AMEA Naxçıvan Bölməsində Vətən tarixi, iqtisadiyyat və arxeologiya ixtisasları üzrə fəaliyyət göstərən Dissertasiya Şurasına 2013-cü ildən doktorluq dissertasiyalarının müdafiələrini təşkil etmək səlahiyyəti də verilib ki, bu da muxtar respublikanın elm bazasında qadınların sayının artmasına zəmin yaradıb. Çünki ana, evinin xanımı kimi müqəddəs missiyanı daşıyan qadınlar üçün ailəsindən, övladlarından tez-tez ayrı düşmək, uzaq məsafələrə getmək iqtisadi çətinlikdən əlavə, daim mənəvi nigarançılıq yaradırdı. Lakin bu proseslərin lokal çərçivədə həlli qadınları bu nigarançılıqdan azad etmək baxımından əhəmiyyətli oldu.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun göstərdiyi diqqət və qayğının nəticəsidir ki, qadınlara elm, mədəniyyət sahəsində mühüm vəzifələr etimad edilir. Bu etimadın ən bariz nümunələrindən biri də fəlsəfə doktoru Natəvan xanım Qədimovanın mədəniyyət naziri vəzifəsinə təyin edilməsidir. Tarix üzrə fəlsəfə doktoru Yeganə Məmmədova Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatıdır, eyni zamanda məktəb direktoru vəzifəsində çalışır. Həmçinin tədqiqat institutlarında, ali məktəblərdə bir çox fakültələrin dekanı, kafedra müdiri vəzifələri məhz alim qadınlara həvalə edilib.

Görülən tədbirlər respublikada fəaliyyət göstərən elmi-tədqiqat müəssisələrinin, o cümlədən Naxçıvan Dövlət Universiteti, “Naxçıvan” Universiteti və Naxçıvan Müəllimlər İnstitutunun pedaqoji heyətində qadın alimlərin sayının gündən-günə artmasında özünü göstərməkdədir. Hazırda muxtar respublikada fəaliyyət göstərən 4 elmlər doktorundan Zərifşən Babayeva və Sevinc Abbasova Naxçıvan Dövlət Universitetində, Sədaqət Həsənova Naxçıvan Müəllimlər İnstitutunda, Fatmaxanım Nəbiyeva isə AMEA Naxçıvan Bölməsində çalışmaqdadır. Bununla yanaşı, 48 fəlsəfə doktoru Naxçıvan Dövlət Universitetində, 6-sı “Naxçıvan” Universitetində, 5-i Müəllimlər İnstitutunda çalışır. Əməkdaşı olduğum AMEA Naxçıvan Bölməsinin gender faizində bu irəliləyiş belə əks olunub: 2015-ci ilin yanvarına aid statistikaya əsasən burada çalışan 84 elmi işçinin 29-nu, 48 fəlsəfə doktorunun 14-nü xanımlar təşkil edir. Hazırda bölmədə çalışan 53 fəlsəfə doktorundan 17-si qadındır. Bu rəqəm I mərhələdə olan alim qadınlarımızın ümumi sayına bərabərdir.

AMEA Naxçıvan Bölməsinin 5 şöbəsi qadınların rəhbərliyi altında fəaliyyət göstərir. Onlar təkcə respublika miqyasında deyil, xaricdə də məhsuldar alim kimi tanınmaqdadır. Belə alim xanımlardan kimya üzrə fəlsəfə doktoru, dosent və laboratoriya rəhbəri Fizzə Məmmədovanın Rusiya Elmlər Akademiyasının professoru seçilməsi son günlərdə hamımızı sevindirən uğurlardandır. Lakin bu uğurlar, sadəcə, yaşlı və orta nəsillə bitmir. Estafetin gənc nəslə ötürülməsi sahəsində də bir çox işlər görülür. Təkcə 2017-2018-ci illər ərzində 30-dan çox gənc bölmənin elmi heyətinə daxil olub. Bölməmizdə elmi işçi olan qadınların sayı 33 nəfərə çatıb.

Muxtar respublikanın ali təhsil müəssisələrində də istedadlı gənclərin sayı gündən-günə artmaqdadır. Bu faktlar Azərbaycanın elmi elitasında Naxçıvanın alim qadınlarının faiz nisbətinin daha da artacağına təminat verir. Bütün bunlar isə dövlətimizin elmə, gənclərə və Azərbaycan qadınına göstərdiyi diqqət və qayğının bəhrələridir. Göstərilən bu qayğıya ən yaxşı cavab isə bizim elm adamlarının fəaliyyətlərini daha da artırmaq və yeni-yeni sanballı elmi tədqiqatlar vasitəsilə doğma diyarımızın inkişafına öz töhfəmizi verməyimiz olacaq.

**Zeynəb QULİYEVA**
***AMEA Naxçıvan Bölməsinin şöbə müdiri, dosent***

*Milli dəyərlərimizi öyrənək və yaşadaq*

# Yallılarımız unudulmaz mənəvi irsimizdir

***Yallılar əsrlərin süzgəcindən keçərək xalqımıza məxsus bütün xüsusiyyətləri, onun kimliyini, tarixini, mədəniyyətini, etnoqrafiyasını, mifoloji inanclarını keçmişimizdən bu günədək daşıyan xalq rəqslərimizdir. Yallılar nəsillər arasında mənəvi körpüdür. Qürur hissi duyuruq ki, muxtar respublikamızda bu mənəvi körpü yüksək ehtiramla qorunub saxlanılır.***



Araşdırmalar sübut edir ki, incəsənətin ən geniş yayılmış növlərindən biri olan rəqs sənətinin tarixi zərb musiqi alətlərinin yaranma tarixindən xeyli qədimdir. İbtidai icma quruluşu dövründə Azərbaycan ərazisində yaşayan müxtəlif qəbilə üzvləri ova çıxdıqları zaman əl çala-çala, ya da ağac və daşları bir-birinə vuraraq rəqs etmişlər. Bu cəhətdən muxtar respublikamızın Ordubad rayonu ərazisində yerləşən Gəmiqayadakı qaya təsvirləri xüsusilə səciyyəvidir. Eradan əvvəl II-I minilliyə aid yaşayış yeri olan Qızılburunda da aşkar edilmiş polixrom boyalı küpə üzərindəki rəqs – ifaçılıq təsviri yurdumuzda yallının çox qədim tarixə malik olduğundan xəbər verir.

Hələ lap qədimdən insanlar rəqs etmək üçün müəyyən müşayiətə və ritmə ehtiyac duymuşlar. Bu gün də yallılarımızı musiqinin müşayiəti olmadan təsəvvür etmək çox çətindir.

Bəs hazırda muxtar respublikamızda keçirilən müxtəlif mədəni tədbirlərdə iştirak edən yallı qruplarını müşayiət edən, sevə-sevə dinlədiyimiz musiqiləri səsləndirən yallı müşayiətçiləri kimlərdir? Bu sualın sorağında Şərur rayonuna üz tutduq. Rayon mədəniyyət sarayında “Şərur” Xalq Yallı Ansamblının məşq saatı olduğundan həm yallılarımızı əyani olaraq izləyə bildik, həm də yallı musiqisini dinləmək imkanımız oldu.

Məşq bitdikdən sonra ansamblın direktoru, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Kimya Babayeva bizimlə söhbətində vurğuladı ki, minillik tarixi olan mədəni irsimiz, o cümlədən yallılarımız bu gün beynəlxalq səviyyədə də yetərincə tanıdılır. Belə ki, Ali Məclis Sədrinin tapşırığına əsasən 2018-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi və Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi yallı sənəti ilə bağlı tədqiqatlar aparıb, bu irsin YUNESKO səviyyəsində qorunması ilə bağlı tədbirlər həyata keçirilib, “Şərur” Xalq Yallı Ansamblının fəaliyyəti və Naxçıvanda yallı sənəti ilə bağlı məlumatlar hazırlanıb aidiyyəti üzrə təqdim olunub. “Yallı (Köçari, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri” YUNESKO-nun Təcili Qorunma Siyahısına daxil edilib. Bu, biz sənət adamlarının hər birinə milli qürur və sevinc hissi bəxş etdi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun “Şərur yallıları haqqında” 2018-ci il 24 dekabr tarixli Sərəncamı bu xalq yaradıcılığının öyrənilməsi və təbliği istiqamətində mədəniyyət işçilərinin də qarşısında mühüm vəzifələr qoyur.

Sonra yallı müşayiətçiləri Azərbaycanın Əməkdar mədəniyyət işçisi, zərb alətləri ifaçısı İsgəndər Əliyev, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti, nəfəsli alətlər ifaçıları Natiq Məmmədov və Tuncay Həsənzadə, həmçinin Azərbaycan Respublikasının Əməkdar artisti, “Şərur” Xalq Yallı Ansamblının bəddi rəhbəri Əfsər Novruzovla həmsöhbət olduq.





Zərb alətləri ifaçısı İsgəndər Əliyev bildirdi ki, tarixən bu diyarda yallı mövcud olmuş, xalqımız tərəfindən eldən-elə, dildən-dilə ötürülərək bu günümüzə qədər yaşadılmışdır. Naxçıvan bölgəsində yallıları üç nəfərdən ibarət musiqiçi dəstəsi müşayiət edir. Bura 2 zurna, 1 nağara ifaçısı daxildir. Zurna ifaçılarından biri rəqsin əsas melodiyasını ifa edən solistdir. O həm də ansamblın rəhbəri sayılır. “Dəmkeş” adlanan digər zurna ifaçısı isə bu melodiyada tonikanı və digər istinad pərdələrini “dəm” şəklində uzadaraq ifa edir. Nağaraçı çubuqdan istifadə edərək iri nağarada yallını müşayiət edir. Müsahibimin dediklərinə görə, iri nağara zərb aləti tarixən “toy” adlanıb. “Nağara” ərəb sözüdür – vurmaq, döyəcləmək mənasını ifadə edir. Buna görə də həmin alətin “toy” adlandırılması milliliyimiz baxımından əhəmiyyətlidir.

İsgəndər Əliyev onu da qeyd etdi ki, müəyyən müddət ərzində yallılarımıza olan marağın azalması ucbatından onlardan bəziləri unudulmaq təhlükəsi ilə üz-üzə gəlsə də, bu gün həmin yallılar yaşadılır. Bildirdi ki, burada əmək fəaliyyətinə başladığı gündən etibarən belə yallıları təbliğ etməyə çalışıb. Fəaliyyəti dövründə 7 yallını yenidən hazırlayıb. Tanınmış tarzən və pedaqoq Əkrəm Məmmədli və Kənan Məmmədlinin “Naxçıvan-Şərur el yallıları” kitabının ərsəyə gəlməsində də zəhməti olub. Həmin kitabda 60-dan çox el yallısının nota yazılmasına kömək edib. Qeyd edək ki, kitabda Azərbaycan xalq musiqi janrına aid olan yallılar, həmçinin yallıları müşayiət edən musiqi dəstəsi, bu dəstədə istifadə olunan çalğı alətləri, Şərurda ifa olunan yallılar haqqında məlumatlar verilib.

Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti, nəfəsli alətlər ifaçısı Natiq Məmmədov isə bizimlə söhbətində bildirdi ki, güclü və zil səsə malik zurna musiqi aləti tarixən Azərbaycan ərazisində geniş yayılmış və mədəni həyatımızda özünəməxsus yer tutmuşdur. Zurna sözünün “surnay” sözündən olub, sur – “böyük ziyafət”, nay – “qarğı”, “qamış” mənasını verdiyi ehtimal edilir. Arxeoloji qazıntılar nəticəsində zurna alətindən Azərbaycanda eramızdan əvvəl istifadə olunduğu sübut edilib. Əvvəllər musiqi məktəbləri olmadığından zurna ifaçıları xalq arasında ustadlardan dərs alaraq bu sənəti öyrənirdi. Not bilmədikləri üçün ifaçılar bir çox çətinliklər çəkirdilər. İndi isə muxtar respublikanın bütün bölgələrindəki musiqi məktəblərində yaradılan şərait, həmin məktəblərdə nəfəsli alətlər sinfinin açılması bu sahənin inkişafına yeni imkanlar açıb.

Bu gün Kəngərli Rayon Mədəniyyət Sarayında də yallı qrupları fəaliyyət göstərir. Buradakı yallı müşayiətçilərindən zurna ifaçıları İntiqam Rzayev və Vüqar Muradov bildirdilər ki, digər bölgələrimiz kimi, Kəngərli rayonunda da mədəni sahələrin inkişafına böyük diqqət və qayğı göstərilir. Yallı təkcə musiqi və rəqs növü deyil. O, qədim oğuz-türk tarixinin başlıca möhürlərindən biri olmaqla yanaşı, xalqımızın həm də bugünkü varlığıdır. Məhz bu mənəvi sərvətlərimiz ilə düşmənlərimizə də kimliyimizi, varlığımızı göstərə bilirik. Muxtar respublikada yallılarımızın yaşadılması, tədqiqi və təbliği istiqamətində həyata keçirilən tədbirlər də təqdirəlayiqdir. Son illər rayonda mədəniyyət müəssisələri, uşaq musiqi məktəbləri üçün yeni binalar tikilib istifadəyə verilib. Bu, həm də gənc nəsildə hazırda ifa etdiyimiz qədim musiqi alətlərinə olan marağı daha da artırıb. Sevindirici haldır ki, musiqi məktəblərində bu aləti öyrənmək üçün üz tutan şagirdlərin sayı ildən-ilə daha da artmaqdadır. Keçmişdə buradakı el şənlikləri, toylar sonda yallı ilə başa çatardı. Bu gün də yallısız bir toy belə, təsəvvür etmək olmaz. Onun sözlərinə görə, Kəngərlidə fəaliyyət göstərən “Gülümhey” folklor qrupu da istər müxtəlif tədbirlərdə, istərsə də el şənliklərində və toylarda fəal iştirak edir.

*Bəli, musiqi milli varlığımızı təsdiqləyən zəngin mənəvi xəzinəmiz, xalqları və cəmiyyətləri bir-birinə yaxınlaşdıran bir vasitədir. Çoxəsrlik tarixə malik, zəngin etnoqrafiyamızı yaşadan yallılarımız isə milli musiqimizin nadir incilərindəndir.*

✍ **Pərviz HACILI**

## Rəsm müsabiqəsinə yekun vurulub



Naxçıvan Dövlət Rəsm Qalereyasında Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə “Naxçıvan Muxtar Respublikası – 95” devizi altında keçirilən “Maddi mədəni irsim Naxçıvan” rəsm müsabiqəsinin əsas turu olub.

Müsabiqədə Şərur rayonu (2 nəfər), Culfa rayonu (4 nəfər), Şahbuz rayonu (3 nəfər), Ordubad rayonu (4 nəfər), Babək rayonu (2 nəfər), Kəngərli rayonu (2 nəfər) təmsil olunub. Çəkilən rəsmlər münsiflər heyəti tərəfindən 10 ballıq sistemlə qiymətləndirilib.

I yerin qalibi Şərur rayon Maxta kənd mədəniyyət evinin rəsm dərnəyinin üzvü Okutan Murad olub, II və III yerlərə isə müvafiq olaraq Ordubad rayon Dırnıs kənd mədəniyyət evinin rəsm dərnəyinin üzvü Gülçin Cabbarlı və həmin rayonun Mədəniyyət sarayının rəsm dərnəyinin üzvü Arif İbrahimov layiq görülüblər.

Sonda qaliblərə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin diplomları təqdim olunub.

**Əli RZAYEV**

## “Elm aylığı”na start verilib

*Naxçıvan Müəllimlər İnstitutunda “Elm aylığı” çərçivəsində “Tələbələrin elmi-tədqiqat fəaliyyətlərinin təşkilinin aktual problemləri” mövzusunda seminar-müşavirə keçirilib.*

Tədbiri giriş sözü ilə İnstitutun rektoru, tarix üzrə fəlsəfə doktoru, dosent Elbrus İsayev açaraq “Elm aylığı”nın mahiyyəti, məqsədi və vəzifələri haqqında ətraflı məlumat verib.

Bildirilib ki, “Elm aylığı” çərçivəsində keçiriləcək silsilə tədbirlər ali təhsil müəssisələrində təhsil alanların elmi-tədqiqat fəaliyyətinin müasir tələblər baxımından təşkilinin, onların innovasiya fəaliyyətinə cəlb olunması yollarının araşdırılması, gələcək mütəxəssislərin düzgün istiqamətləndirilməsi məqsədi daşıyır.

Diqqətə çatdırılıb ki, cari tədris ilində institutda elmi-tədqiqat fəaliyyəti sistemli və planauyğun aparılır. Bu il ali təhsil ocağında magistratura və doktorantura üzrə ayrıca bölmənin yaradılması, 2019-cu il üçün yüksəkixtisaslı elmi və elmi-pedaqoji kadr hazırlığının diqqətdə saxlanılması, doktoranturaya qəbulun müsabiqə əsasında keçirilməsi, habelə altı əməkdaşın dissertasiya işlərini uğurla müdafiə etməsi, alimlərimizin məqalələrinin nüfuzlu beynəlxalq jurnallarda çap olunması və digər sahələrdə görülmüş işləri qeyd edə bilərik. Hazırda institutun əsas hədəflərindən biri bu təhsil müəssisəsini tədqiqat universitetinə çevirməkdən ibarətdir.

Sonra Naxçıvan Müəllimlər İnstitutunun tədqiqatçı müəllimlərinin və Tələbə Elmi Cəmiyyəti xətti ilə elmi-tədqiqat fəaliyyəti ilə məşğul olan təcrübəli tələbələrin məruzə və məlumatları dinlənilib. Bölmə iclaslarında dəyirmi masa ətrafında elmi rəhbərlərlə tədqiqatçı tələbələrin əməli görüşləri keçirilib, fərdi məsləhət saatları təşkil edilib.

Sonda bölmə rəhbərləri işlərinin yekunlarına dair hesabat veriblər, qarşıda duran vəzifələr müəyyənləşdirilib.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## Şəhər birinciliyi başa çatıb

*Naxçıvan Muxtar Respublika Stadionunda Naxçıvan şəhər tam orta məktəblərinin oğlan idmançıları arasında velosiped idman yarışı üzrə şəhər birinciliyi keçirilib.*



Naxçıvan Muxtar Respublikası Hava və Ekstremal İdman Növləri Federasiyası, Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi və şəhər Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə keçirilən birincilikdə 15 tam orta məktəbdən 50-yə yaxın idmançı iştirak edib.

Şəxsi xarakter daşıyan birinciliyin yekununa əsasən İldırım Tarverdiyev (7 nömrəli tam orta məktəb) I, Nurlan Muradov (7 nömrəli tam orta məktəb) II, İbrahim Məmmədli (7 nömrəli tam orta məktəb) III olublar.

Sonda qaliblərə təşkilatçıların diplomları və hədiyyələri təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası üzrə 2019-cu ilin fevral ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 3867794 | 408877 | 409571 | 100,2 |
| 2. | Culfa rayonu | 1726825 | 173278 | 173541 | 100,2 |
| 3. | Babək rayonu | 3445357 | 347048 | 347356 | 100,1 |
| 4. | Ordubad rayonu | 1608862 | 162765 | 162864 | 100,1 |
| 5. | Şərur rayonu | 2758678 | 277484 | 277582 | 100,0 |
| 6. | Sədərək rayonu | 329842 | 32984 | 32992 | 100,0 |
| 7. | Kəngərli rayonu | 1197624 | 120033 | 120046 | 100,0 |
| 8. | Şahbuz rayonu | 886164 | 93346 | 93349 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 11968426 | 2111572 | 1969827 | 93,3 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **27789572** | **3727387** | **3587128** | **96,2** |

***İtmişdir***

Naxçıvan şəhəri, Qaraxanbəyli kənd sakini İbrahimov Hikmət Kazım oğlunun adına olan torpaq sahəsinin 000154 inventar nömrəli daşınmaz əmlakın pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 184